**UOT 94; UOT 32:93/94**

**MƏMMƏDAĞA BAXIŞOV**
*Bakı Dövlət Universitetinin Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi kafedrasının dosenti*
**mammadaqabaxıshov@bsu.edu.az**

# XXI ƏSRİN BİRİNCİ RÜBÜNDƏ NATO-NUN BEYNƏLXALQ MÜNASİBƏTLƏRDƏ İŞTİRAKI

DOI: https://doi.org/10.36719/2708-065X/105/122-127

*Məqalə XXI əsrin birinci rübündə NATO-nun beynəlxalq münasibətlərdə iştirakına həsr olunmuşdur. Məqalədə Şimali Atlantika Alyansının sülhyaratma əməliyyatları, terrorizmə qarşı mübarizədə iştirakı, şərqə doğru genişlənməsi, ABŞ-ın İraqa qarşı başladığı yeni müharibənin NATO-ya təsiri, Fransanın NATO-nun strukturuna qayıtması, Alyansın sammitlərində Gürcüstanın və Ukraynanın təşkilata daxil olması ilə bağlı məsələlər şərh edilir. Müəllif 2008-ci il Rusiya-Gürcüstan müharibəsi ilə bağlı NATO-nun mövqeyinə, 2010-cu ildən sonra NATO-nun qəbul etdiyi yeni konsepsiyaların məzmununa, NATO-nun Şərqi Avropa ölkələrində raketdən müdafiə sistemi yerləşdirməsinə, Liviya müharibəsində NATO-nun iştirakına, 2014-cü ildə Krımın Rusiyaya birləşdirilməsindən sonra Rusiya-NATO münasibətlərinin kəskinləşməsinə və D.Trampın dövründə ABŞ-ın NATO ilə bağlı siyasətinə xüsusi diqqət yetirilir.*

*Açar sözlər*: Şimali Atlantika Alyansı, transformasiya, sülhyaratma əməliyyatı, genişlənmə, Buxarest sammiti, Rusiya-NATO münasibətləri, Liviya müharibəsi, terrora qarşı mübarizə.

***Giriş.*** NATO Şurasının 1999-cu ilin aprelində Vaşinqtonda keçirilən sessiyasında təşkilatın yaradılmasının 50-ci ildönümü qeyd edildi və Şimali Atlantika Alyansının yeni strateji konsepsiyası qəbul edildi. Sənədə əsasən NATO "Sülh Naminə Tərəfdaşlıq" proqramına qoşulmuş ölkələrlə əməkdaşlığı genişləndirməli, NATO-nun sülhyaratma əməliyyatlarına daha çox ölkənin qoşulmasını təmin etməli idi (3, s.319). Yeni konsepsiyaya görə NATO regional təşkilat kimi qalmamalı, qlobal miqyaslı hərbi-siyasi təşkilata çevrilməli idi.

1999-cu ildə Kosovo münaqişəsi NATO-nun iştirakı ilə Qərbin mənafeyinə uyğun həll edildi. Kosovo münaqişəsi Qərb ölkələri tərəfindən Balkan yarımadasında təhlükəsizliyə təhdid kimi qəbul edilirdi. Serbiyaya qarşı NATO-nun hərbi əməliyyatlarının başa çatmasından sonra BMT Təhlükəsizlik Şurasının qərarı əsasında sülhyaratma məqsədi ilə "Kosovo Üçün Qüvvələr" yaradıldı (4, s.148). Bu qüvvə NATO-ya tabe və Kosovoda sülhü və sabitliyi qorumalı idi. NATO həmin funksiyanı indiyədək yerinə yetirir. Kosovada NATO-nun "Kemp Bondstil" adlı çoxfunksiyalı hərbi bazası yaradıldı. Avropada ən böyük hərbi bazanın tikintisi Alyansa 8 milyard dollara başa gəlmişdi. BMT-nin və Kosovo hökümətinin nümayəndələri "Kemp Bondstil" bazasının ərazisinə daxil ola biməzdi. Bazada 1000-ədək ABŞ hərbiçisi xidmət edir, Ukrayna, Gürcüstan və Pribaltika üçün kadrlar hazırlanırdı. Bazanın ərazisində nüvə müharibəsi zamanı qorunmaq üçün sığınacaq və gizli həbsxana yerləşirdi.

2001-ci il sentyabrn 11-də ABŞ-da törədilmiş terror hadisələri NATO-nun qərargahında ABŞ-a silahlı hücum kimi qiymətləndirildi. Alyansın tarixində ilk dəfə kollektiv müdafiə haqqında beşinci maddə tətbiq edilmişdi. ABŞ-ın xahişi əsasında NATO 2001-ci ilin oktyabrından 2002-ci ilin mayınadək "Qartalın köməyi" adlı antiterror əməliyyatı həyata keçirdi (14, s.272). AVAKS radarı ilə təchiz olunmuş yeddi NATO təyyarəsi ABŞ səmasında keşik çəkirdi.

2003-cü ilin avqustunda Şimali Atlantika Alyansı Əfqanıstanda Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələrinə rəhbərlik etməyə başladı. Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələri BMT Təhlükəsizlik Şurasının 2001-ci ilin dekabrın 20-də qəbul etdiyi qərar əsasında yaradılmışdı. Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələrinə rəhbərlik NATO-nun Avropadan kənarda keçirdiyi ilk hərbi əməliyyatı idi və 2014-cü ilin dekabrınadək davam etmişdi (2, s.85). Sonra NATO-nun rəhbərliyi Əfqanıstan ərazisinə nəzarəti ölkənin ordusuna və təhlükəsizlik qüvvələrinə vermişdi. 2015-ci ilin yanva-

rında NATO Əfqanıstanda yerli silahlı qüvvələrə təlim keçmək və yardım göstərmək məqsədilə "Qətiyyətli dəstək" əməliyyatı həyata keçirməyə başladı.

XXI əsrin əvvəllərində NATO-nun şərqə doğru genişlənməsi prosesi davam etmişdi. 2002-ci ilin noyabrında NATO-nun Praqa sammitində Bolqarıstanın, Ruminiyanın, Slovakiyanın, Sloveniyanın, Litva, Latviya və Estoniyanın təşkilata qəbul edilməsinə razılıq verildi və həmin ölkələrin hər biri ilə Tərəfdaşlıq Fərdi Əməliyyat Planının hazırlanması haqqında qərar qəbul edildi. Tərəfdaşlıq Fərdi Əməliyyat Planı Şərqi Avropa ölkələrinin NATO ilə strateji hərbi tərəfdaşlığını və onların gələcəkdə Alyansa daxil olmasını nəzərdə tuturdu. 2002-2015-ci illərdə Ukrayna (2002), Gürcüstan, Azərbaycan, Ermənistan (2004), Qazaxıstan və Moldova (2006), Bosniya və Çernoqoriya (2008) və Serbiya (2015) NATO ilə Fərdi Tərəfdaşlıq Əməliyyat Planı imzaladı.

Praqa sammitində NATO-nun Çevik münasibət qüvvələrinin yaradılması haqında qərar qəbul edildi. Bu qüvvələrdən ilk dəfə 2004-cü ildə Afinada keçirilən yay olimpiya oyunlarının təhlükəsizliyini təmin etmək üçün istifadə edilmişdi (7, s.265). Praqa sammiti həm də NATO-nun rəhbər orqanlarının islahatı haqqında qərar qəbul etmişdi. Praqa sammitinin sənədlərində ilk dəfə "transformasiya" anlayışı işlədilmişdi. Bu anlayış yeni üzvləri, yeni potensialı və tərəfdaşlarla yeni münasibəti olan NATO-nun yaradılması prosesi ilə genişlənmənin əlaqəsini, yeni qlobal vəziyyət,təhdidlər və vəzifələrlə bağlı NATO-nun əsaslı islahatını nəzərdə tuturdu.

2003-cü ildə ABŞ-ın İraqa qarşı yeni müharibəsi NATO-da böhran yaratdı. Fransa, AFR və Belçika ABŞ-ın İraqa qarşı yeni müharibəyə başlamasının əleyhinə idi. ABŞ BMT Təhlükəsizlik Şurasında NATO-nun üzvü olan üç ölkənin etirazını nəzərə almadı. Lakin bu hadisə Transatlantika əlaqələrinin kəsilməsinə səbəb olmadı. Bu ABŞ-ın və onun Qərbi Avropadakı müttəfiqlərinin ümumi mənafeləri ilə, onların müdafiə və təhlükəsizlik sahəsində xərcləri artırmaq istəməməsi ilə bağlı idi. 2003-cü ildə Avropa İttifaqı ilə NATO arasında "Berlin-üstəgəl" adlı saziş imzalandı (8, s.367). Sazişə görə Avropa İttifaqı ABŞ-ın iştirak etmədiyi bir sıra hərbi əməliyyatların həyata keçirilməsi zamanı NATO-nun qüvvələrindən istifadə edə bilərdi. Bu yolla Avropa İttifaqının müstəqil ordu yaratmasının zəruriliyi növbəti dəfə aradan qalxdı və Avropa İttifaqının müdafiə siyasətində NATO-nun və ABŞ-ın aparıcı rolu qeyd edildi.

2004-cü ildə Bolqarıstan, Ruminiya, Slovakiya, Sloveniya, Litva, Latviya və Estoniya NATO-ya daxil oldu (11.s.353). Bu NATO-nun altıncı genişlənməsi idi. 2008-ci ilin aprelində Buxarest sammitində Alyans Xorvatiya və Albaniyanı təşkilata daxil olmaq üçün dəvət etdi. 2009-cu ildə Xorvatiya və Albaniya NATO-nun üzvü oldu. 2019-cu ildə Makedoniya ABŞ-ın və Avropa İttifaqının təzyiqi altında Yunanıstanla çoxillik mübahisəni həll etdi və Şimali Makedoniya adını qəbul etdi. Sonra Şimali Makedoniya Şimali Atlantika Alyansına daxil olmaq haqqında protokolu imzaladı və 2020-ci ilin martında NATO-ya daxil oldu (14, s.274). 2023-cü ildə Finlandiya, 2024-cü ildə İsveç NATO-ya daxil oldu və təşkilat üzvlərinin sayı 32-yə çatdı.

2009-cu ilin aprelində Fransa NATO-nun hərbi strukturuna qayıtdı. Bu işdə Fransa prezidenti N.Sarkozinin ABŞ və NATO rəhbərliyi ilə danışıqları mühüm rol oynadı (6, s.177). Fransanın NATO-ya tam hüquqlu üzv kimi bərpası haqqında qərar Strasburq sammitində qəbul edildi. Lakin Fransa NATO-nun Nüvə Planlaşdırılması Qrupuna qəbul edilmədi. Bosniya və Hersoqovina NATO üzvlüyünə namizəd ölkələrdən biri idi. 2010-cu ildə ona "Üzvlük üçün Fəaliyyət Planı" verildi, lakin həyata keçirilmədi. Bosniyanın tərkibində olan Serb Respublikası onun NATO-ya daxil olmasının əleyhinə çıxış edirdi.

Ukrayna və Gürcüstan NATO üzvlyünə namizəd ölkələr sırasına daxil idi. 2008-ci ildə NATO-nun Buxarest sammitində həmin ölkələrin Alyansa üzvlüyü məsələsi müzakirə edildi, lakin onlara "Fəaliyyət planı" verilmədi. Həmin ildə Gürcüstanda keçirilən referendumda əhalinin əksəriyyəti NATO-ya qoşulmağın leyhinə səs verdi. ABŞ, Ukrayna və Gürcüstanın NATO-ya daxil olması üçün fəallıq göstərirdi (1, s.268). Fransa və AFR həmin ölkələrin NATO-ya qəbul edilməsi məsələsində tələsməməyi tövsiyyə etdi. Buxarest sammitində qəbul edilmiş bəyanatda deyilirdi ki, Ukrayna və Gürcüstanın NATO-ya üzvlüyü zaman məsələsidir. İndiyədək NATO-nun proqram sənədlərində və strateji konsepsiyalarında həmin vəd təkrarlanır. 2022-ci ilin fevralında Rusiyanın Ukraynaya qarşı başladığı müharibənin səbəblərindən biri Ukraynanın NATO-ya daxil olmaq istəməsi idi.

Rusiyanın 2008-ci ilin avqustunda Abxaziya və Cənubi Osetiyanın müstəqilliyini tanıması və 2014-cü ilin martında Krımın Rusiyaya birləşdirilməsi Ukrayna və Gürcüstanın NATO-ya qəbul edilməsini çətinləşdirdi. Rusiya ilə ərazi mübahisəsi həmin ölkələr üçün ciddi problem idi. Lakin bu amil ABŞ prezidentinə və NATO-nun baş katibinə müntəzəm şəkildə "Ukrayna və Gürcüstan NATO-nun üzvü olacaq" bəyanatı verməyə mane olmurdu. Ukrayna və Gürcüstan hərbi quruculuğun bütün sahələrində NATO ilə sıx əməkdaşlıq edir, öz ordusunu NATO standartlarına keçirir və müntəzəm hərbi təlimlər təşkil edirlər. 2008-ci ilin sentyabrında birgə NATO-Gürcüstan Komissiyası, 2014-cü ildən çoxmillətli birgə NATO-Gürcüstan briqadası fəaliyyət göstərir. Gürcüstan ərazisində NATO-nun təlim və logistika mərkəzləri yaradılmışdı.

Ukraynada V.Janukoviçin prezidentliyi dövründə NATO-ya yaxınlaşma prosesi dayanmışdı. 2014-cü ilin fevralında Ukraynada həyata keçirilmiş dövlət çevrilişi həmin prosesə təkan verdi. 2014-cü ilin dekabrında Ukrayna Ali Radası ölkənin bloklara qoşulmama statusunu ləğv etdi (5, s.421). 2019-cu ildə Ukraynanın NATO-ya daxil olmaq istəyi onun konstitutiyasına əlavə edildi. 2019-cu ildə ABŞ Ukraynanın Oçakov və Nikolayev limanındakı hərbi obyektlərin yenidənqurulmasına başladı. Bu obyektlərdən həm ABŞ kəşfiyyatı, həm də hərbi dəniz qüvvələri Rusiyanın Qara dəniz donanmasına qarşı istifadə edirdi.

2014-cü ildə Gürcüstan, 2020-ci ildə Ukrayna "geniş imkanlarla NATO-nun tərəfdaşları" statusu aldı. Bu status həmin ölkələrin Şimali Atlantika Alyansının kəşfiyyat məlumatlarına, silah və hərbi texnologiyasına daha da yaxınlaşmasını və NATO-nun hərbi əməliyyat və missiyalarında daha fəal iştirakını nəzərdə tuturdu.Yeni ölkələrin daxil olması və Alyansın yeni vəzifələri icra etməyə başlaması 1999-cu ildə qəbul edilmiş strateji konsepsiyaya yenidən baxılmasını zəruri etdi.

2010-cu ilin noyabrnda NATO-nun "Fəal İştirak və Birgə Müdafiə" adlı yeni strateji konsepsiyası qəbul edildi (9, s.644). Yeni konsepsiyada üç mühüm vəzifənin icrasına xüsusi diqqət yetirilmişdi. Birinci vəzifə üzv ölkələrin təcavüzdən qorunması, təhlükəsizlik, kütləvi qırğın silahlarının yayılması, terrorizm, kiber təhlükəsizlik, yeni silahlardan istifadə, ticarət və nəqliyyat yolları üçün təhlükə, ekoloji risklər kimi yeni çağırışlara qarşı kollektiv müdafiə idi. İkinci vəzifə böhranların tənzimlənməsi ilə bağlı idi. NATO sərəncamında olan bütün siyasi və hərbi vasitələrlə üzv dövlətlərin təhlükəsizliyinə qorxu yaradan istənilən böhranın aradan qaldırılmasını öhdəsinə götürmüşdü. Üçüncü vəzifə əməkdaşlıq əsasında təhlükəsizliyin təmin edilməsi idi. NATO beynəlxalq təhlükəsizliyin üçüncü ölkələrlə və beynəlxalq təşkilatlarla tərəfdaşlıq yolu ilə möhkəmlənməsinə çalışmalı idi.

NATO-nun məqsədi silahlanmaya və tərkisilaha nəzarət, kütləvi qırğın silahının yayılmaması, münaqişələrin tənzimlənməsi idi. Eyni zamanda NATO bəyan etdi ki, onun qapıları daxil olmaq istəyən, onun meyarlarını ödəyən demokratik ölkələr üçün həmişə açıqdır. Lissabon sammitində həm də NATO-nun Avropada raketdən müdafiə sisteminin yaradılması haqqında qərar qəbul edildi. Əvvəl bu sistem 2018-ci ilədək hazır olmalı idi, sonra bu proses 2020-ci ilədək təxirə salındı. Avropa raketdən müdafiə sistemi Rumıniya, Polşa və Çexiyada qurulmalı və Türkiyə, İspaniya və Hollandiyadakı RMS-lə əlaqələndirilməli idi.

NATO-nun Aralıq dənizindəki hərbi gəmilərdə olan raketləri Avropadakı RMS-i tamamlamalı idi. 2011-ci ildə Çexiya öz ərazisində RMS-i yerləşdirməkdən imtina etdi. 2016-cı ildə Avropa RMS-nin ilk elementləri Rumıniyada yerləşdirildi. 2022-ci ildə Polşada həmin müdafiə sistemi quruldu. NATO bəyan etmişdi ki, Şərqi Avropada RMS həmin ölkələri İranın nüvə raketlərindən qorumaq üçün yerləşdirilir və Rusiyaya qarşı yönəlməyib, onun hərbi-strateji potensialı üçün təhlükə yaratmır (1, s.269). Rusiya bildirdi ki, NATO-nun vədlərinə inanmır. İran raketləri Avropa üçün təhlükəli deyil. Rumıniya və Polşada yerləşən RMS Rusiyadan buraxılan ballistik raketləri zərərsizləşdirə bilərdi. Bu sistem vasitəsilə orta mənzilli nüvə raketi də atmaq mümkün idi.

Rusiya iddia edirdi ki, Avropa RMS-i müdafiə sistemi deyil, ABŞ-ın nüvə potensialının bir hissəsidir. ABŞ və NATO Rusiyaya hüquqi təminat vermək niyyətində deyildi ki, Avropa RMS-i onun nüvə qüvvələrinə qarşı yönəlməyib. Rusiya Kalininqradda "İsgəndər" raket kompleksi, Krımda strateji raketdaşıyan eskadra yerləşdirmişdi. Rusiya həm də səsdən sürətli və Avropa RMS-nin tuta bilmədiyi yeni raketlər istehsal edirdi.

2011-ci ildə NATO Liviyaya hərbi müdaxilədə iştirak etdi. Liviyada vətəndaş müharibəsinin başlanmasından az sonra Qərb ölkələri ABŞ-ın rəhbərliyi altında beynəlxalq koalisiya yaratdı. Sonra

NATO koalisiyanın əlaqələndiricisi oldu. 2011-ci martın 17-də BMT Təhlükəsizlik Şurasının qətnaməsi ilə NATO-ya Liviya səmasını başqa təyyarələr üçün bağlamaq hüququ verildi. 2011-ci ilin martın 31-də NATO Liviyada "Birləşmiş müdafiə" adlı hərbi-dəniz əməliyyatına başladı. Əməliyyatın məqsədi mülkü əhalini qorumaq, real məqsəd isə Tripolidə rejimin dəyişdirilməsi idi. Alyansın təyyarələri hökümət qoşunlarının mövqelərini kütləvi şəkildə bombalayırdı. Yekun mərhələdə İngiltərə və Fransa xüsusi təyinatlıları müharibədə iştiraka başladı (13, s.346).

2014-cü ildə başlanmış Ukrayna böhranı ilə bağlı NATO-nun fəaliyyətində və Rusiyaya münasibətində əsaslı dəyişikliklər edildi. 2014-cü ilin sentyabrnda İngiltərənin Nyuport şəhərində keçirilən NATO-nun sammitində Rusiyanın Krım və Donbasla bağlı siyasəti kəskin tənqid edildi. Sammitdə qəbul edilən qərara görə Çevik münasibət qüvvələri çərçivəsində Yüksək hazırlıq qrupu yaradılmalı və Rusiyanın hücumu zamanı qısa müddətdə Şərqi Avropa ölkələrinə göndərilməli idi. Nyuportda qəbul edilən digər qərara görə Əfqanıstanda aparılan əməliyyat yekunlaşdırılmalı və təhlükəsizliyin təmin edilməsi sahəsində səlahiyyət yerli güc strukturlarına verilməli idi. 2015-ci ildən Əfqanıstanda NATO-nun 16 min nəfərlik qeyri güc srukturu fəaliyyət göstərməli idi. Missiyanın məqsədi Əfqanıstanda yerli təhlükəsizlik qüvvələrinə təlim keçmək və məsləhətlər vermək idi (12, s.371).

2016-cı ilin iyulunda NATO-nun Varşavada keçirilən sammitində Rusiyanın hərəkətinə cavab kimi dörd çoxmillətli qrupun yaradılması və Pribaltika respublikalarında və Polşada yerləşdirilməsi haqqında qərar qəbul edildi. Qrupun hər biri 800-1000 əsgərdən ibarət idi. Qrupların həmin ölkələrdə yerləşdirilməsi 2017-ci ildə başa çatdı. Bu qruplarda xidmət keçən əsgərlər Alyansın üzvü olan 10 ölkədən dəvət edilmişdi. 2019-cu ildə ABŞ-la Polşa arasında razılaşmaya görə Polşada əlavə 1000 NATO əsgəri yerləşdirildi.

D.Trampın ABŞ prezidenti seçilməsindən sonra NATO-nun fəaliyyətində yeni səhifə başlandı. 2018-ci ilin iyulunda NATO-nun Brüseldə keçirilən sammitində Alyansın hərbi xərclərinin daha 33 milyard dollar artırılması haqqında qərar qəbul edildi. 2018-ci ildə NATO-nun büdcəsi 1,013 trilyon dollar idi ki, onun 706 milyardı (70%) ABŞ -n payına düşürdü. ABŞ prezidenti D.Trampı bu vəziyyət təmin etmədiyinə görə o NATO-nun üzvü olan ölkələrdən hərbi xərcləri artırmağı tələb edirdi.

Brüssel sammitində soyuq müharibədən sonra NATO-nun fəaliyyətinə aralıq qiymət verildi. NATO rəhbərliyi bildirdi ki, Alyans müntəzəm şəkildə dəyişən dünyaya uyğunlaşır, eyni zamanda üç əsas vəzifə dəyişməz qalır: kollektiv müdafiə, böhranların idarə edilməsi və birgə təhlükəsizlik. 2019-cu ilin dekabrında London sammitində NATO-nun yaradılmasının 70 illiyi təntənə ilə qeyd edildi (14, s.282). Təşkilatın üzvü olan ölkələrin rəhbərləri NATO-nun Avro Atlantika məkanında təhlükəsizliyə əhəmiyyətli töhvə verdiyini, onun tarixdə ən güclü və uğurlu hərbi-siyasi alyans olduğunu qeyd etdilər.ABŞ-ın təşəbbüsü ilə NATO-nun sammiti kosmosu hava, torpaq, dəniz və kiberməkan ilə yanaşı Alyansın 5-ci fəaliyyət məkanı kimi təsdiq etdi.

London sammitində çıxış edən Fransa prezidenti E.Makron bildirdi ki NATO "beyin ölümü" yaşayır.E.Makron ABŞ ilə onun strateji müttəfiqləri arasında əlaqələrin zəifləməsini və Türkiyənin NATO ilə razılaşdırılmayan birtərəfli fəaliyyətini belə səciyyələndirmişdi. NATO-nun London sammiti ərəfəsində Türkiyə Suriyanın şimal rayonlarına qoşun göndərmişdi.E.Makron müntəzəm şəkildə Avropa ordusunun yaradılmasının zəruriliyindən bəhs edirdi.E.Makron bəyan etmişdi ki, Avropaya onu Çindən,Rusiyadan və zəruri hallarda həm də ABŞ-dan müdafiə edən ordusu lazımdır.

London sammitində ABŞ prezidenti D.Trump yenə üzv ölkələrin hərbi xərclərini artırmasından bəhs etdi.O bildirdi ki,Avropa ölkələri NATO-ya ödədiyi üzvlük haqqını artırmaq istəmir. Türkiyə prezidenti R.Ərdoğan sammitdə çıxışı zamanı tələb etdi ki NATO-ya daxil olan ölkələr Suriyada fəaliyyət göstərən silahlı kürd dəstələrini terrorçu kimi tanısınlar. NATO üzvləri bilirdi ki ABŞ Suriyada fəaliyyət göstərən silahlı kürd dəstələrinə yardım göstərir.

2020-ci ilin dekabrında Şimali Atlantika Alyansı "NATO-2030:yeni erada birlik" adlı məruzə ilə çıxış etdi.Məruzədə deyilirdi ki,NATO müntəzəm şəkildə təcavüskarlığla məşğul olan Rusiyaya, Çinin yüksəlişinə və yeni texnologiyaların artan roluna münasibət bildirməlidir. 2021-ci ildə NATO-nun yeni strateji konsepsiyası qəbul edildi. 2022-ci ildə Rusiya Ukraynada hərbi əməliyyatlara başladı.NATO Ukraynya hərtərəfli yardım göstərirdi ki nəticədə ABŞ, NATO və Avropa İttifaqının Rusiya ilə münasibətləri daha da pisləşdi. Finlandiya və İsveçin NATO-ya daxil olmasından sonra Şimali Atlantika Tərəfdaşlıq Şurasına daxil olan ölkələrin sayı 52-yə çatdı.

***Nəticə.*** 2024-cü ilin aprelin 24-də Şimali Atlantika Müqaviləsi Təşkilatının yaradılmasının 75-ci il dönümü tamam oldu.Yubiley ilində Şimali Atlantika Alyansının qarşısında dayanan vəzifələrdən biri müdafiə xərclərinin artırılması və döyüşə hazırlıq səviyyəsinin yüksəldilməsi idi.NATO-nun baş katibi Rusiya-Ukrayna müharibəsinin başlanmasından sonra tez-tez üzv ölkələri müdafiə xərclərini artırmağa çağırırdı. NATO həm də əsgərlərinin sayını artırırdı ki,özünə düşmən hesab etdiyi Rusiya-ya qarşı müharibəyə hazır olsun. NATO Ukraynaya qarşı müharibədə Rusiyanın qələbəsini qəti şəkil-də istəmirdi. Yubiley tədbirlərinin rəsmi şəkildə 2024-cü ilin iyul ayında Vaşinqtonda keçirilməsi nə-zərdə tutulmuşdu.75 ildir ki, Şimali Atlantika Alyansı qlobal təhlükəsizlik mühitində baş verən bütün dəyşikliklərə baxmayaraq fəaliyyət göstərir,həm Avropada, həm də dünyada yaranmış yeni şəraitə uyğunlaşır. Uğurlu və uzun ömürlü müdafiə ittifaqı kimi tarixə düşən NATO gözlənilməz təhlükə və sınaqların artdığı bir şəraitdə yeni dövrə qədəm qoydu.Təbii ki Alyansın çətinlik və zəif cəhətləri mövcuddur. Bütövlükdə Şimali Atlantika Alyansı AvroAtlantika məkanında təhlükəsizliyin əsas təminatçısı olaraq qalır.

ƏDƏBİYYAT

1. Baxışov M.Ə. Amerika Birləşmiş Ştatlarının xarici siyasəti (1776-2016). Bakı, AzTU-nun mətbəəsi, 2017, 286 s.
2. Baxışov M.Ə. NATO-nun Şərqə doğru genişlənməsi. Bakı, Füyüzat, 2023, 128 s.
3. Baxışov M.Ə. Beynəlxalq münasibətlər tarixi (1918-2003). Bakı, AzTU-nun mətbəəsi, 2012, 408 s.
4. NATO. Məlumat kitabı. Bakı, NATO-Azərbaycan Beynəlxalq Məktəbi, 2009, 388 s.
5. Фененко А.В. Современная история международных отношений. 1991-2018. М., Аспект Пресс, 2018, 456 s.
6. Baxışov M.Ə. Fransa Respublikası. Bakı, Füyüzat, 2024, 204 s.
7. Кулагин В.М. Международная безопасность. М., Наука, 2007, 318 с.
8. История международных отношений. т.3 (под.ред. А.В.Торкунова). М., Аспект Пресс, 2012, 552 с.
9. Печатнов В.О., Манинкин А.С. История внешней политики США. М., «Международные отношения», 2021, 680 с.
10. Baxışov M.Ə. Avropa və Amerika ölkələrinin müasir tarixi (II dünya müharibəsindən sonrakı dövr). Bakı, 3 saylı Bayıl mətbəəsi, 2018, 334 s.
11. Мутагиров Дж.З. История и теория международных отношений. М., Международные политические институты, 2018, 439s.
12. Батюк В.И. История международных отношений. М., Юрайт, 2018, 486 с.
13. Богатуров А.Д. История международных отношений. 1945-2017. М., Аспект Пресс, 2017, 560 с.
14. Современные международные отношения, 1991-2020 гг. (под.ред.Б.Ф.Мартынова). М., Изд. АСТ, 2021, 768 с.

**МАМЕДАГА БАХЫШОВ**
*Доцент кафедры новой и современной истории стран Европы и Америки*

## УЧАСТИЕ НАТО В МЕЖДУНАРОДНЫХ ОТНОШЕНИЯХ В ПЕРВОЙ ЧЕТВЕРТИ XXI ВЕКА

Статья посвящена участию НАТО в международных отношениях в первой четверти XXI века. В статье рассматриваются миротворческие операции Североатлантического альянса, его участие в борьбе с терроризмом, его расширение на восток, влияние новой войны, начатой США против Ирака, на НАТО, возвращение Франции в структуру НАТО, комментируется включение Грузии и Украины в саммиты Альянса. Автор рассматривает позицию НАТО относительно российско-грузинской войны 2008 г., содержание новых концепций, принятых

НАТО после 2010 г., развертывание НАТО систем противоракетной обороны в странах Восточной Европы, участие НАТО в Ливийской войне, 2014 г. Особое внимание уделено обострению отношений Россия-НАТО после присоединения Крыма к России и политика США в отношении НАТО во времена Д.Трампа.

*Ключевые слова:* Североатлантический альянс, трансформация, миротворческая операция, расширение, саммит в Бухаресте, отношения Россия-НАТО, ливийская война, борьба с терроризмом.

**MAMMADAGA BAKHYSHOV**
*Associate Professor of the Department of Modern and Contemporary History of Europe and America*

## PARTICIPATION OF NATO IN INTERNATIONAL RELATIONS IN THE FIRST QUARTER OF THE XXI CENTURY

It is dedicated to NATO's participation in international relations in the first quarter of the 21st century. In the article, the peacekeeping operations of the North Atlantic Alliance, participation in the fight against terrorism, eastward expansion, new wars started by the United States against Iraq, Towards NATO, France's return to NATO's structure, issues related to Georgia and Ukraine's entry into the organization are commented on at the Alliance's summits. Author NATO's position on the 2008 Russia-Georgia war, since 2010 In the content of the concepts, NATO's development of a missile defense system in Eastern European countries, NATO's participation in the Libyan war, the aggravation of Russia's NATO relations after the annexation of Crimea to Russia in 2014, and the US policy related to NATO under Donald Trump pay special attention.

*Keywords:* North Atlantic Alliance, transformation, peacekeeping operation, enlargement, Bucharest summit, Russia-NATO relations, Libyan war, terrorist pact, war.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 18 aprel 2024-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 03 may 2024-cü il.*
*Rəyçilər: t.ü.f.d.Elmira Hüseynova, t.e.d. Sevinc Yusifzadə.*